Azərbaycan Respublikasının
Mərkəzi Bankı sədrinin
2014-cü il 03 mart tarixli
65 nömrəli sərəncamı ilə
təsdiq edilmişdir

# NAĞDSIZ ÖDƏNİŞLƏR SAHƏSİNDƏ ELAN EDİLMİŞ NOMİNASİYA VƏ MÜSABİQƏ QALİBLƏRİNİN MÜƏYYƏN EDİLMƏSİ ÜZRƏ MÜNSİFLƏR HEYƏTİ HAQQINDA ƏSASNAMƏ

## 1. Ümumi müddəalar

1.1. Nağdsız ödənişlər sahəsində elan edilmiş nominasiya və müsabiqə qaliblərinin mükafatlandırılması üzrə Münsiflər Heyəti (bundan sonra – Münsiflər Heyəti) Azərbaycan Respublikasının Mərkəzi Bankı (bundan sonra - Mərkəzi Bank), Azərbaycan Banklar Assosiasiyası və prosessinq təşkilatlarının nümayəndələrindən ibarət təşkil edilmiş kollegial məşvərətçi orqandır.

1.2. Münsiflər Heyəti öz fəaliyyətində "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Banklar haqqında" Azərbaycan Respublikasının qanunlarını, "Ödəniş kartlarının emissiyası və istifadə Qaydaları"nı, Mərkəzi Bankın digər normativ xarakterli aktlarını və bu Əsasnaməni rəhbər tutur.

## 2. Münsiflər Heyətinin fəaliyyətinin əsas məqsədi

Münsiflər Heyətinin fəaliyyətinin əsas məqsədi ölkədə nağdsız hesablaşmaların və elektron ticarətin inkişaf etdirilməsi, maliyyə vasitəçiliyində innovasiyaların tətbiqinin sürətləndirilməsi istiqamətində fərqlənən qalib bankların, habelə nağdsız ödənişlər sahəsində maarifləndirici tədbirlərin genişləndirilməsi məqsədi ilə jurnalistlər arasında keçiriləcək müsabiqə üzrə qaliblərin müəyyən edilməsidir.

## 3. Münsiflər Heyətinin funksiyaları

3.1. Münsiflər Heyəti aşağıdakı funksiyaları həyata keçirir:

3.1.1. nağdsız ödənişlər sahəsində lider bankların müəyyən edilməsi üçün müxtəlif nominasiyaların təsis edilməsi;

3.1.2. nağdsız ödənişlər sahəsində jurnalistlər arasında müxtəlif müsabiqələrin təsis edilməsi;

3.1.3. elan edilmiş nominasiya və müsabiqələr üzrə qaliblərin seçilməsi şərtlərinin müəyyən edilməsi;

3.1.4. nominasiya və müsabiqə şərtləri ilə bağlı bankların və jurnalistlərin məlumatlandırılması.

3.1.5. nominasiya və müsabiqə qaliblərinin müəyyən edilməsi və onların təltifi.

## 4. Münsiflər Heyətinin işinin təşkili

4.1. Münsiflər Heyəti bu Əsasnamənin 1.1-ci bəndində qeyd edilən təşkilatların nümayəndələrindən təyin edilmiş 9 üzvdən ibarətdir.

4.2. Münsiflər Heyətinin sədri Münsiflər Heyətinin işini təşkil edir.

4.3. Münsiflər Heyəti işinin kommunikasiyası Mərkəzi Bank tərəfindən həyata keçirilir.

4.4. Münsiflər Heyətinin işi üzrə katiblik funksiyası Mərkəzi Bankın Ödəniş sistemləri və hesablaşmalar departamenti tərəfindən həyata keçirilir.

4.5. Banklar arasında mükafatlandırma qeyri-maddi formada, jurnalistlər arasında mükafatlandırma isə maddi formada Mərkəzi Bankın vəsaiti hesabına həyata keçirilir. Mükafatların həcmi, təqdim olunmasının vaxtı və yeri haqqında qərar Münsiflər Heyəti tərəfindən qəbul edilir.

4.6. Nominasiya və müsabiqələr üzrə qaliblərin seçilməsi və təltif edilməsi nominasiyaların və müsabiqələrin şərtlərində nəzərdə tutulmuş müddətlərdə həyata keçirilir.

4.7. Münsiflər Heyətinin iclaslarına Münsiflər Heyətinin sədri, o olmadıqda, onun müavini sədrlik edir.

4.8. Münsiflər Heyətinin üzvlərinə iclasın keçirilməsi yeri və vaxtı, habelə gündəliyinə çıxarılan məsələlər barədə iclasa azı 2 (iki) iş günü qalmış məlumat verilir.

4.9. Münsiflər Heyətinin iclası Münsiflər Heyətinin sədri və ya onun müavini də daxil olmaqla Münsiflər Heyətinin 5 üzvü iştirak etdikdə səlahiyyətli sayılır.

4.10. Münsiflər Heyətinin qərarları iclasda iştirak edən üzvlərin adi səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda iclasa sədrlik edən həlledici səsə malikdir.

4.11. Münsiflər Heyətinin qərarları protokolla rəsmiləşdirilir. Protokol Münsiflər Heyətinin sədri və iclas katibi tərəfindən imzalanır.

4.12. Münsiflət Heyətinin iclasları qiyabi formada keçirildikdə üzvlərə qəbul olunacaq qərar və bu qərar haqqında arayış təqdim olunur. İclas qiyabi formada keçirildikdə Münsiflər Heyətinin üzvləri öz imzaları ilə qərarı təsdiqləyirlər.

4.13. Münsiflər Heyətinin üzvlərinin ümumi razılığı əsasında dövlət və ya özəl təşkilatların nümayəndələri Münsiflər Heyətinin işinə cəlb edilə bilər.

4.14. Azərbaycan Respublikası Mərkəzi Bankı Münsiflər Heyətinin fəaliyyəti haqqında ictimaiyyəti daim məlumatlandırır.

## 5. Yekun müddəalar

Bu Əsasnamə təsdiq edildiyi tarixdən qüvvəyə minir.

**A. Quliyev**

**K. Qurbanova**

**R. Məlikova**